# Mənim balam öz balana söylə ki...



Qəşəm Nəcəfzadə

## Xatirələr başacan, ayrılıqlar dizəcən

Ayaqlarım üşüyür mənə nəsə olacaq,
Xəbərin olacaqmı bunu deyə bilmirəm.
Əllərim üşüsəydi, nə olardı görəsən,
Bir aydı düşünürəm onu deyə bilmirəm.

Hardasa yol qırılır, ayaqlarım donur bax,
Boyum göyə dartılır, addımlarım kiçilir.
Hə qədər yollar var keçirəm ürəyindən,
Di gəl onun üstündən tırtıllı tanklar keçir.

Yağıbdı aramıza qar kimi məsafələr,
Xatirələr başacan, ayrılıqlar dizəcən.
Sübhəcən axır yerə otağımın işığı,
Aşağıda bir sərxoş söyüş söyür sübhəcən.

Kimsə məni dindirir, huşum çıxır başımdan,
Ağlım özün itirir, sirr açılır, sirr düşür.
Məsafələr dartılır, ayaqlarım kiriyir,
Mən uçuram göylərə, ayaqımdan yer düşür.

## Mənim balam öz balana söylə ki...

Oğlum, dünən qınayırdın atanı,
Bu gün gördün, hər şey atan deyəndi.
Milyon ildi itkin düşüb həqiqət,
İndi düzlər ağzın sənə əyəndi.

Pis adamlar məndən sənə qalandı,
Mən cəhənnəm, körpə qəlbin talandı.
Allandığım adamlara allandın,
Allanan da, alladan da həmindi.

Mən qocayam bərki- boşu qanıram,
Olanları gəldi - gedər sanıram.
Səni necə aldatdılar, yanram,
Aldanmayan əlindəki qələmdi.

Mənim balam öz balana söylə ki..
Qəşəm baban dedi mənə böyləki:
Qurban olum ruhdan düşmə hələki,
Ən gözəli gözəl Allah biləndi.

## Nə gözəl oldu

Səhər - səhər bağa girdim beyqafıl,
Bu günün cuması nə gözəl oldu.
İpək torda zikr eləyir hörümçək,
Üzünün cunası nə gözəl oldu.

Bağbanı yatmışdı bu gözəl bağın,
Görürdüm köksündə yüz yerdə dağın.
İllər ilə bağlı qalan dodağın,
Bir xəbər açması nə gözəl oldu.

Qaş qaşa toxundu, göz- gözə dəydi,
Min söz qoşun çəkdi, bir sözə dəydi.
Arı elə bildi dilim çiçəydi,
Dilimi sancması nə gözəl oldu.

Fələk qələm tutub bir iş işlədi,
Ayaq daşı öpdü, diş dil dişlədi.
Əmr gəldi, yarın köçü başladı,
Yarımın köçməsi nə gözəl oldu.

Bağa girdin sordun yarın əhvalın,
Bu heyrətə yox cavabın, sualın.
Sirr dediyin bu axırın, əvvəlin,
Qəşəm, əlifbası nə gözəl oldu.

## Cümələrdə sən adımı gizli tut

Yerdən yeddi Günəş uçdum uzağa,
Milyon ilə gələ bilsən, gələrsən.
Küş qılginən həm oruca, namaza,
Məni dilə, gələ bilsən, gələrsən.

Cümələrdə sən adımı gizli tut,
Səhər sevsən, axşamları tez unut.
Göz yaşını əl - üzünə sər, qurut,
Belə - belə, gələ bilsən, gələrsən.

Ağlım azdı, canı təngə gətirdim,
Təhvil verdim, ömrü sona yetirdim.
Bir gör məni haralarda itirdin,
Bilə-bilə, gələ bilsən, gələrsən.

Öpmək üçün guman saxla gözü də,
Demək üçün səhman saxla sözü də,
Toza döndüm, evinizdə tozu da,
Silə - silə, gələ bilsən, gələrsən.

Ruhum deyir bu şeirim də son vida,
Tapılmaram, nə quruda, nə suda.
Ay sevdiyim, ay gözəlim, əlvida,
Gülə - gülə, gələ bilsən, gələrsən.

## At haqqında şeir

Ağbulaqlı Tahirin atı
Gecənin birində
Dönüb küləyə,
Getdi ön cəbhəyə...
Keçdi yalın o üzünə
Bir qarın dolusu
ələf yeməyə.

Kimi dedi, atın
Qardaşı varmış təpənin arxasında,
Kimi də dedi,
At doğulduğu kəndi görübmüş
yuxusunda,
Dəlinin biri də sərsəmlədi
Təpənin dalında
Xatirəsi varmış,
Bu gün- sabah qayıdar, qardaş.

At qayıtmadı
yerinə bir şeir qayıtdı...

Tahir yazmışdı o şeiri
Atı haqqında...

İndi kəndimizdə
Tahiri at kimi
Çapır o şeir...

## Əlil arabası

Bulvarda
Həyatın şəkilinə bax,
Əlil arabası ilə uşaq kolyaskası,
Yanaşı addımlayır...
Görəsən kim çəkib bu şəkli,
Haradan, nə vaxt, özü də saat neçə də...
Gör nə qədər dəqiq hesablanıb
Əlillə körpə arasındakı
Məsafə,
Vaxt,
Zaman,
Dəqiqə...

İndi təkər ayaqlar,
Bir - birlərini keçmək fikrində deyillər əsla.
Eləcə cüt addımlayırlar-
Əlili nəvəsi aparır,
Körpəni anası...
İkisi də gülümsəyir
Bu mənzərəyə,
Bir - birinə,
Hərdən də
Ayaqlarına...
Ötüb keçənlər də maraqla baxırlar,
Ayaqları qıdıqlayır
Təbəssümlər.

Birdən uşaq kolyaskadan
Düşüb qaçır
Qırmızı topa sarı,
Ondan da qabaq çatır topa
Əlilin olmayan
Ayaqları...

## Anan səni çağırsa...

*Qağam (atam) rayona gedəcəkdi, həkimə. 5 yaşım vardı, məni aparıb qoydu sürünün qulağına.*

*Dedi, bu gün sən otaracaqsan. Sonra ətrafda nə gördüsə, məni onlara tapşırdı. Örüş fermadan çox uzaqda idi.*

Ay quş, Qəşəmə yoldaş ol
Qoyma qorxsun, hərdən - hərdən səs elə.
Ay daş, Qəşəmin ayağını çox əzmə,
Bir əzdinsə, əzməyini bəs elə.

Gəl Qəşəmin bacısı ol, ay çiçək,
Onu qoyub ayrı səmtə boylanma.
Ay yovşanlar ilanları tez qovun
Qəşəm qorxur ala- bula ilandan.

Hərdən sən də "hav- hav" elə, ay köpək,
Kütləri "hap" edərsən,
"Luk luk"la yal içərsən.
Söyüdün altında mürgüləyən su,
Sən də tərpən balıqların səsinə.

Qoyun minmə, daha yekə kişisən,
Atlar kişnər, qoyun ürkər,
Qəfil yerə dəyərsən.
Anan indi evi alıb başına,
Qəşəm deyib çağırsa,
Qaça -qaça gedərsən.

## Qəşəm hey

*Anam bu şeiri bir yaşım yaşım olanda üstümdə oxuyub.*

Qəşəmin azarı sularla getsin,
Ay sular ey, ay sular ey...
Dilində sözləri çiçəklə bitsin,
Ay çiçək ey, ay çiçək ey...

Çölnən gedən, ay göy atlı,
-Balam öskürür dərmanı nədi?
-Qara qarğanın qanı.
-Qarğanın da balası var,
Ölürəm, ay qara qarğa, sənin üçün.

Ay dittili, get burdan, küş, küş...
Balam yatır, ay yemək, tez biş, biş,
Səni görüm daşa dön,
Ay qazan, qayna,
Ay it, get o yanda hür,
Ay pişik gəl bu yanda oyna...
Balamın qulağı ağrıyır...

Ay dəvə ey, ay dəvə ey,
Balam ağlayır,
Yaxına gəl, Qəşəm sənə baxıb gülsün.
Ay atlılar,
Boz atlılar,
Qıratlılar,
Duratlılar,
Atlarınızı biz tərəfdən sürün,
Atlarınızın alnı Qəşəmə gülümsəsin...

## İt balası

Söyüb bu küləyə, bu yağışa da,
Söyüb bu alğışa, bu qarğışa da.
Söyüb bu gözələ, bu baxışa da,
Söyüb, söyüb, sonra ağıllanacam.

Gecənin qoynuda ac itlər hür-hür,
Ac olan körpələr kükrəyər kür- kür.
Oğraşdı, bildiyim sirləri bir- bir,
Deyib, deyib, sonra ağıllanacam.

Guya ad çıxarıb söz qalası tək,
Qızarır üzümdə dağ lalası tək.
Sinəmdə ürəyi it balası tək
Döyüb, döyüb, sonra ağıllanacam.

Kirpik gözü döyür, qaçır göz yaşı,
İçimə buludtək uçur göz yaşı.
Çiynimə yük olan bu ağır başı,
Əyib, əyib, sonra ağıllanacam.

## Qəşəmin sözü də...

Şah səni tanısın, ya tanımasın,
Bu arzu özü də bir aldanışdı.
Şeirimi oxuma, beyninə salma,
Bu yazı özü də bir aldanışdı.

Yağışdan sonrakı saman qoxusu,
Bir körpə, bir dovşan, bir quş yuxusu...
Göz gözə toxunsa, qanlı axar su,
Adamın gözü də bir aldanışdı.

Yarın yaylığının bax, yeləninə,
Düşüb tər içində ah yeləninə.
Əlimə yazıram, bax qələmimə,
Qəşəmin sözü də bir aldanışdı.

## Azərbaycan əsgərinə

Sənin surətinlə öldü metoforalar,
Gözlərinin yanında soldu qafiyələr.
Addımınla, səsinlə böləndü hecalar,
Ən böyük romandı içində yüyürdüyün hadisələr...

İndi qucağın səngərdi vətənə,
Səngəri qucağında daşıyan başına dönüm.
Ən gözəl şeiri sən yazdın vətənə,
Şeirimizi təzə sətrdən başlayan
Başına dönüm,
Vətən aşiqdi sənə.

Yüyürürsən ürəyindəki fikrin dalınca,
Qolların, əllərin,
Gözlərin qafiyədi çölün düzündə.
Heç vaxt pozulmasın qafiyyələrin
Başına dönüm,
Eşq olsun səni torpağa yazana...

Yeni başladığın sətirlə
Sən indi Şuşada elsən, obasan.
İndi qələmimin ucunda ən gözəl şeirsən,
Ən böyük nidasan!

Hərdən məni xatırla-
Məni düşün,
Səni necə gözlədiyimi...
Soruş,
Çiçəklərinin kökündə susmuş
Qara torpaqdan...

Hərdən mərmi torpağı dişləyən zaman
Bir çimdik torpaq ah kimi
Göyə sıçrayanda,
Hər əsgərdən sonra bunu
Vergil kimi başa düş, anla
Yəni
Ardı var...
Elə bu şeirin də...